“Təsdiq edirəm”
Bakı Slavyan Universitetinin
Tədris məsələləri üzrə prorektoru
Fikrət Cahangirov_____________
02 iyul 2026-cı il

**BAKI SLAVYAN UNİVERSİTETİ**

# İmtahan suallarının Blum (Bloom) taksonomiyasının koqnitiv (idrak) sahəsinə uyğun hazırlanması üzrə

# T Ə L İ M A T

BSU-nun Elmi-metodiki Şurasının
02 iyul 2026-cı il tarixli iclasında
(Protokol № 11 ) qəbul edilmişdir.

**BAKI – 2026**

## 1. Giriş

Ali təhsil müəssisələrində imtahan sualları yalnız tələbələrin faktoloji biliklərini yoxlamaq üçün deyil, həm də onların analitik, tənqidi və yaradıcı düşünmə bacarıqlarını qiymətləndirmək üçün hazırlanmalıdır. Bu məqsədlə ən geniş istifadə olunan elmi-pedaqoji model Blum(Bloom) taksonomiyasıdır. Blum (Bloom) taksonomiyası - təlim məqsədlərinin, öyrənmə nəticələrinin və qiymətləndirmə tapşırıqlarının sistemli şəkildə təsnif edilməsi üçün istifadə olunan pedaqoji modeldir. Bu model ilk dəfə 1956-cı ildə Amerikalı təhsil psixoloqu Benyamin Blum və onun həmkarları tərəfindən hazırlanmışdır. Blum taksonomiyası müəllimlərə tədris məqsədlərini müəyyənləşdirmək, dərs fəaliyyətlərini planlaşdırmaq və imtahan suallarını müxtəlif idrak səviyyələrinə uyğun hazırlamaq imkanı verir. 2001-ci ildə yenilənmiş versiyaya əsasən taksonomiya 6 səviyyədən ibarətdir:

## 2. Əsas Prinsiplər

**İmtahan sualları:**

2.1. Fənnin təlim nəticələrinə uyğun olmalıdır;

2.2. Müxtəlif idrak səviyyələrini əhatə etməlidir;

2.3. Sadədən mürəkkəbə doğru qurulmalıdır;

2.4. Yalnız əzbərləməni deyil, düşünmə prosesini ölçməlidir;

2.5. Obyektiv və qiymətləndirilə bilən olmalıdır.

## 3. Blum taksonomiyasının 6 səviyyəsi üzrə sualların hazırlanması

## I səviyyə: xatırlama

**Məqsəd:** Tələbənin faktları, terminləri, anlayışları və nəzəri məlumatları yadda saxlayıb- saxlamadığını müəyyən etməkdir.

**Suallarda istifadə olunan feillər:** *sadalayın; göstərin; adlandırın; müəyyən edin; təyin edin; yazın.*

**Sual formaları:** *Nədir? Kimdir? Hansılardır? Nə zaman? Harada?*

**Nümunələr:**

- *Kommunikativ təlim metodunun əsas prinsiplərini sadalayın.*
- *Dil siyasəti anlayışını müəyyən edin.*

## II səviyyə: anlama

**Məqsəd:** Tələbənin mənanı qavrayıb-qavramadığını müəyyən etməkdir.

**Suallarda istifadə olunan feillər:** *izah edin; təsvir edin; şərh edin; müqayisə edin; ümumiləşdirin.*

**Sual formaları:** *Niyə? Necə? Hansı səbəbdən?*

**Nümunələr:**

- *Kommunikativ yanaşmanın mahiyyətini izah edin.*
- *Koqnitiv dilçiliklə struktur dilçiliyi müqayisə edin.*
- *Xarici dil öyrənməsində motivasiyanın rolunu şərh edin.*

## III səviyyə: tətbiqetmə

**Məqsəd:** Öyrənilən biliklərin praktik vəziyyətlərdə istifadəsini qiymətləndirməkdir.

**Suallarda istifadə olunan feillər:** *tətbiq edin; istifadə edin; həll edin; nümayiş etdirin; hesablayın.*

**Sual formaları:** *Necə tətbiq edərdiniz? Bu vəziyyətdə hansı üsuldan istifadə edərdiniz?*

**Nümunələr:**

- *Verilmiş dərs situasiyasında kommunikativ metodun tətbiq yollarını göstərin.*
- *Təqdim olunan mətn üzərində diskurs təhlili aparın.*
- *Verilmiş tapşırıq üçün qiymətləndirmə rubriki hazırlayın.*

## IV səviyyə: təhlil

**Məqsəd:** Tələbənin məlumatı hissələrə ayırmaq və əlaqələri müəyyən etmək bacarığını ölçməkdir.

**Suallarda istifadə olunan feillər:** *təhlil edin; müəyyənləşdirin; fərqləndirin; strukturlaşdırın; kateqoriyalara ayırın;*

**Sual formaları:** *Hansı əlaqələr mövcuddur? Fərqlər və oxşarlıqlar nələrdir?*

**Nümunələr:**

*- Ənənəvi və kommunikativ təlim metodlarını təhlil edin.*

*- Təqdim olunmuş mətnin diskurs strukturunu müəyyənləşdirin.*

*- Xarici dil tədrisində rast gəlinən problemlərin səbəblərini təhlil edin.*

## V səviyyə: qiymətləndirmə

**Məqsəd:** Meyarlar əsasında qərarvermə və tənqidi düşünməni yoxlamaqdır.

**Suallarda istifadə olunan feillər:** *qiymətləndirin; əsaslandırın; tənqid edin; müdafiə edin; dəyərləndirin.*

**Sual formaları:** *Hansı daha effektivdir? Mövqeyinizi əsaslandırın.*

**Nümunələr:**

*- Onlayn və ənənəvi təhsilin effektivliyini qiymətləndirin.*

*- Xarici dil tədrisində rəqəmsal texnologiyaların rolunu dəyərləndirin.*

*- Təklif olunan təlim modelini elmi arqumentlərlə əsaslandırın.*

## VI səviyyə: yaratma

**Məqsəd:** Yeni məhsul, layihə, model və ya konsepsiya yaratmaq bacarığını qiymətləndirməkdir.

**Suallarda istifadə olunan feillər:** *hazırlayın; layihələndirin; tərtib edin; yaradın; təklif edin.*

**Sual formaları:** *Necə bir model təklif edərdiniz? Yeni həll yolları hansılardı?*

**Nümunələr:**

*- Xarici dil tədrisində süni intellektdən istifadəyə dair layihə hazırlayın.*

*- Kommunikativ bacarıqların inkişafı üçün innovativ tədris modeli yaradın.*

*- Dil siyasətinin təkmilləşdirilməsi üzrə fəaliyyət proqramı hazırlayın.*

## 4. Blum taksonomiyası üzrə imtahan biletinin strukturu:

### I Variant

| Sual | Blum səviyyəsi | Bal |
|---|---|---|
| 1. | Xatırlama+Anlama | 5 |
| 2. | Tətbiqetmə | 5 |
| 3. | Təhlil | 10 |
| 4. | Qiymətləndirmə | 10 |
| 5. | Yaratma | 20 |

**Cəmi:** **50 bal**

------------------------------------------------------------

### II Variant

| Sual | Blum səviyyəsi | Bal |
|---|---|---|
| 1. | Tətbiqetmə+Təhlil | 15 |
| 2. | Qiymətləndirmə | 15 |
| 3. | Yaratma | 20 |

**Cəmi:** **50 bal**

## 5. Keyfiyyətə nəzarət sualları

**İmtahan sualı hazırlanarkən aşağıdakı suallara cavab verilməlidir:**

- Sual konkret təlim nəticəsinə xidmət edirmi?

- Bloom taksonomiyasının hansı səviyyəsini ölçür?

- Sual tələbəni düşünməyə məcbur edirmi?

- Sualın obyektiv qiymətləndirilməsi mümkündürmü?

- Sual yalnız əzbərləməni yoxlayırmı?

- Sual elmi cəhətdən dəqiq və aydındırmı?

- Sual fənnin məzmununa uyğundurmu?

- Sual tələbənin analitik və tənqidi düşünməsini stimullaşdırırmı?

## 6. Nəticə

Müasir ali təhsil sistemində yüksək keyfiyyətli imtahan sualı yalnız biliklərin reproduksiyasını deyil, tələbənin anlama, tətbiqetmə, təhlil, qiymətləndirmə və yaratma bacarıqlarını da ölçməlidir. Buna görə də imtahan biletləri hazırlanarkən Blum taksonomiyasının bütün səviyyələrinin balanslı şəkildə nəzərə alınması təlim nəticələrinin obyektiv qiymətləndirilməsinin əsas şərtidir. Xüsusilə, magistratura və doktorantura səviyyələrində təhlil, qiymətləndirmə və yaratma səviyyəli suallar üstünlük təşkil etməlidir.